# YƏHUDANIN MƏKTUBU

## GİRİŞ

*«Yəhudanın Məktubu»* özlərini imanlı adlandıran yanlış təlim yayan müəllimlərə qarşıdır. Bu qısa məktub məzmunca Peterin ikinci məktubuna yaxındır. Müəllif burada imanlıları «əmanət edilən iman uğrunda mübarizə aparmağa» (1:3) çağırır.

**Kitabın məzmunu:**

1:1-2 Salamlama
1:3-16 Səhv təlim yayanların məhkumiyyəti
1:17-25 Xəbərdarlıq və nəsihətlər

---

1 [a]İsa Məsihin qulu, Yaqubun qardaşı mən Yəhudadan Ata Allahın
sevdiyi,[b] İsa Məsih üçün qorunmuş olan çağırılanlara salam! 2 Mərhəmət,
sülh və məhəbbət sizə bol-bol verilsin!

### Günah və məhkumiyyət
*(2Pet. 2:1-22)*

3 Sevimlilər, ümumi xilasımızla bağlı sizə yazmağa çox səy göstərirdim. Bu
arada müqəddəslərə ilk və son dəfə əmanət edilən iman uğrunda mübarizə
aparmağa sizi həvəsləndirmək üçün sizə yazmağı özümə borc bildim.
4 Çünki Allahımızın lütfünü pozğunluq üçün bəhanələrə çevirən, yeganə
Pərvərdigarı – Rəbbimiz[c] İsa Məsihi inkar edən bəzi allahsız adamlar gizlicə
aranıza girdilər. Onların mühakiməyə uğrayacaqları çoxdan yazılmışdır.
5 [d]Bütün bunları bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, ilk və son
dəfə xalqı[e] Misirdən xilas edən Rəbb sonra iman etməyənləri məhv etdi.
6 [f]Öz başçılıqlarını saxlamayan, məskunlaşdığı yerləri tərk edən mələkləri
də böyük qiyamət günü[g] üçün əbədi zəncirlərlə bağlayaraq zülmətdə

---

[a] **1:1** Mat. 13:55; Mark 6:3 [b] **1:1** *Allahın sevdiyi* – bəzi əlyazmalarda *Allahda təqdis edilib.*
[c] **1:4** *Rəbbimiz* – bəzi əlyazmalarda *Allahımız və Rəbbimiz.* [d] **1:5** Çıx. 12:51; Say. 14:28-30
[e] **1:5** *Bütün … xalqı* – bəzi əlyazmalarda *Bütün bunları başdan-başa bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, xalqı.* [f] **1:6** Yar. 6:1-4 [g] **1:6** *Böyük qiyamət günü* – hərfi tərcümədə *böyük günün mühakiməsi.*



The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation